# Qəbələ təhsili 2023-cü ili uğurla başa vurdu

Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin ən başlıca strateji istiqamətlərindən biridir.

16.04.2023 -cü il tarixində ümumi (9 illik) orta təhsil bazasında ümumtəhsil müəssisələrində təhsil alanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanları 6 imtahan mərkəzində təşkil olunmuşdur. Ümumi orta təhsil sıviyyəsini bitirən 1594 şagirddən 1574 nəfəri imtahanda iştirak etmişdir. İmtahanda iştirak edən şagirdlər 3 fənn üzrə (ana dili , riyaziyyat, xarici dil) imtahan vermişlər. IX sinif üzrə ən yüksək göstərici (289 bal) əldə edən şəhər 1 nömrəli tam orta məktəbin şagirdi İsgəndərli Nəzrin Tərlan qızı olmuşdur.

Tam (11 illik) orta təhsil səviyyəsi üzrə yekun qiymətləndirilmə (buraxılış) imtahanları bir mərhələdə keçirilməklə 01 mart 2023-ci il tarixində 6 imtahan mərkəzində təşkil olunmuşdur. Tam orta təhsil səviyyəsi üzrə məktəbi bitirən 1222 nəfər şagirddən 1206 nəfəri imtahanlarda iştirak etmişlər. Onlar ana dili, riyaziyyat, xarici dil fənləri üzrə imtahan vermişlər. XI sinif üzrə ən yüksək nəticə (289) əldə edən şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Əhmədova Nurgül Nəsrəddin qızı olmuşdur.

Həmzəli kənd tam orta məktəbin X sinif şagirdi Yusibov Elşən Səfa oğlu İctimai televiziyanın ən populiyar olan "Əlaçı" televiziya müsabiqəsinin qalibi olmuşdur. "Mən fəxr edirəm ki Azərbaycanlıyam" müsabiqəsində isə rayonun Məlikli kənd tam orta məktəbin şagirdi Yedyarova Ziynət Müşviq qızı fəal iştirakına görə mükafatlandırılmışdır.

Şagirdlərin fundamental bilik almalarında, konkret müəyyən sahələr üzrə istiqamətlənməsində təmayül siniflərin rolu olduqca əhəmiyyətlidir. 2023 - 2024 -ci tədris ili üzrə rayonun ümumitəhsil məktəblərinin X və XI sinifləri üzrə 17 təmayül sinfi təşkil olunmuş və bu siniflərə 388 şagird cəlb olunmuşdur . Daimi olaraq təmayül siniflərdə tədris prosesinin təşkilinin monitoringləri aparılır, qarşıya çıxan hər hansı nöqsanın aradan qaldırılması anında təmin edilir. Təmayül siniflərə MİQ-dən və Dioqnostik qiymətləndirmədən yüksək bal toplayan peşəkarlığı və səriştəliliyi yüksək olan müəllimlər cəlb edilmişdir.

2022 - 23 cü tədris ilində 553 şagird ali məktəblərə qəbul edilmişdir ki, bunlardan 17 nəfəri 600-dən yuxarı bal toplamışdır.

Müəllimlərin bilik, bacarıqlarının və peşə yaradıcılıqlarının yoxlanılması məqsədi ilə rayonun ibtidai sinif, ana dili və ədəbiyyat fənlərini tədris edən müəllimlərin 23-24 iyun tarixlərinə uyğun olaraq Şəki və Şamaxı şəhərlərində mərkəzləşmiş qaydada sertifikasiyası aparılmışdır.

2023-cü ilin I yarım ili ərzində Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbi respublika əhəmiyyətli idman, Uşaq-Gənclər İnkişaf Mərkəzi respublika əhəmiyyətli yaradıcılıq müsabiqələrində yüksək fəallıqla iştirak etmiş və yüksək nəticələr qazanmışlar.

Təhsil müəssisələrinin mövcud maddi-texniki vəziyyəti, dərslik və tədris avadanlıqları, ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrinin fasiləsiz istilik sistemi və yanacaqla təmin olunması ilə əlaqədar monitorinqlər aparılıb, nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün bir sıra işlər görülmüşdür. Məlumat üçün bildiririk ki, rayonun 68 ümumtəhsil məktəbindən 25-i qazla, 1-i mərkəzləşdirilmiş istilik sistemi ilə, 6-sı elektriklə, 4-ü maye yanacaqla, 31-i isə odunla (1651 kub metr odun yanacağı ilə təmin edilmişdir) qızdırılır. Məktəblərin yeni dərs ilinə hazırlanmasında və tədrisin keyfiyyətinin yüksəldilməsində şagirdlərin dərsliklərlə təmin olunması əsas vəzifələrdən biridir. Bu məqsədlə iyul, avqust ayında Şəki - Zaqatala Regional Təhsil İdarəsi tərəfindən ümumtəhsil müəssisələrinə 70898 nüsxə dərslik və müəllimlər üçün metodik vəsait verilmiş və həmin dərsliklərin məktəblərə çatdırılması təmin edilmişdir.

Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni məktəb binası və əlavə sinif otaqlarının tikintisi, əsaslı və cari təmiri işləri xüsusi diqqət mərkəzindədir. 2023-2024 -cü tədris ilinin başlanğıcında dövrün ən müasir tələblərinə uyğun Nic qəsəbə 1 və Nic qəsəbə 4 saylı tam orta məktəbləri üçün uyğun olaraq 225 və 320 yerlik məktəb binalarının tiintisi başa çatdırılaraq şagirlərin istifadəsinə verilmiş, Bum qəsəbə tam orta məktəbi üçün 624 yerlik yeni məktəb binasının tikintisi başa çatdırılmış və ən qısa zamanda şagirdlərin ixtiyarına veriləcəkdir.

Şəki - Zaqatala RTİ tərəfindən Daşlıca, Tikanlı kənd tam orta, Bum ümumi orta məktəblərində və Qəbələ rayonu üzrə təhsil sektorunun inzibati binasında təmir işləri aparılmışdır.

Şəki Zaqatala Regional İdarəsinin Qəbələ rayonu üzrə təhsil şektoru, eləcə də bütün təhsil müəssisələri növbəti dərs ilində təhsilin keyfiyyətinin yüksəldilməsi , təlim resurslarından, müasir təlim metodlarından və texnologiyalarından daha səmərəli istifadə etmək istiqamətində işləri bu gündən sonra da davam etdirəcək, əvvəlki illərdə qazanılmış nailiyyətlərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi yolunda əzmlə çalışacaqdır.

**Arifə BAYRAMOVA,**
**Şəki- Zaqatala Regional Təhsil İdarəsinin Qəbələ rayonu üzrə təhsil sektorunun müdiri.**

# Yeni uğurlarla

Gələcəyimizin təminatı olan gənclərimizin maraqlarını, istedad və bacarıqlarını inkişaf etdirərək, lazımi bilik, bacarıq, davranış və birgə işləmək vərdişlərini mənimsəməklə həyata hazırlanmasında və ölkəmizin inkişafında onların mühüm bir amilə çevrilməsində peşə təhsili böyük imkanlar yaratmışdır.

Respublika təhsil sisteminin tərkib hissəsi olan peşə təhsili sistemi də öz uğurları ilə ölkəmizin inkişafına töhfə verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə tam əhatə olunan ölkəmizin peşə təhsili sistemi son illər yeni inkişaf mərhələsinə qədəm qoymuş və möhtərəm prezidentimiz tərəfindən "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu və "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" kimi mühüm sənədlərin təsdiq edilməsi ilə özünün uğurlu inkişafına imza atmışdır.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi regionda turizm və kənd təsərrüfatı istiqamətində kadr hazırlığı üzrə əhəmiyyətli dərəcədə seçilən təhsil ocaqlarındandır.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin tabeliyində olan Qəbələ Peşə Məktəbi və Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi birləşdirilərək, 2021-ci ildən etibarən onların bazasında yaradılan "Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi" publik hüquqi şəxs statusu əldə etmişdir.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi 1,300 kvadratmetrə yaxın sahəsi olan ikimərtəbəli və üçmərtəbəli tədris korpusları, 6 hektar ərazidə tədris-istehsalat sahəsi, 52,9 hektar təcrübə sahəsi, zəngin təlim-texniki vasitələrlə təmin olunmuş ümumi sayı 70-ə çatan auditoriyalar, fənn kabinetləri, 3 laboratoriya və 5 tədris emalatxanası, 155 yerlik konfrans zalı, fondu minlərlə ölçülən kitabxana, iki böyük qazanxana, yataqxana, tələbə və müəllim yeməkxanası, kompüter informasiya mərkəzi, Təhsil Nazirliyi tərəfindən verilmiş kənd təsərrüfatı texnikaları, qaynaq qurğuları, iaşə avadanlıqları tələbə və mühəndis-pedaqoji heyətimizin ixtiyarındadır.

Mərkəzimizdə ölkənin müxtəlif bölgələrindən tələbələr təhsil alırlar. Cari tədris ilində yataqxanada 38 rayondan 100-dən artıq tələbə yerləşdirilib. Onların asudə vaxtlarının səmərəli təşkili daim diqqətdə saxlanılır.




Qeyd edək ki, Mərkəzdə, ümumilikdə, 1000 tələbənin təhsil alması mümkündür. Hazırda mərkəzdə 32 ixtisas üzrə tədris aparılır və bu ixtisaslarda 985 şagird peşə öyrənir. Tələbə kontingentinin sayı isə 720 ( onlardan 300 nəfəri qadın olmaqla) nəfərdir.

Mərkəzdə təhsil dövlət vəsaiti hesabına və ödənişli əsaslarla aparılır. Ümumi orta (9-cu sinif) təhsil bazasından daxil olmaqla təhsil müddəti 1 il, 2 il və 3 illik (lisey) qruplarda, tam orta (11-ci sinif) təhsil bazasından isə 1 illik qruplarda peşə öyrənmək imkanı vardır.

Publik hüquqi şəxs olduqdan sonra mərkəzimizdə kadr hazırlığında daha bir uğurlu yeniliyə imza atılmışdır. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində artıq 3-cü ildir ki, yüksək texniki peşə təhsil səviyyəsinin tədrisi aparılır. Qeyd edək ki, yüksək texniki peşə təhsili səviyyəsi - peşə təhsil pilləsinin ən yüksək səviyyəsi olmaqla subbakalavr ixtisas dərəcəsi üzrə kadr hazırlığını nəzərdə tutur. Bu təhsil səviyyəsi müxtəlif texnologiya və texniki proseslərin tətbiqi, uyğunlaşdırılması və optimallaşdırılması üzrə işləri icra edəcək nəzəri və praktiki bacarıqlara sahib kadrların hazırlanmasını həyata keçirir. Peşə təhsili ilə ali təhsil pilləsi arasında keçid imkanlarını təmin edir.

Veb dizayn və proqram təminatı, Mehmanxana və restoran işinin təşkili və idarə edilməsi ixtisasları üzrə, Baytarlıq və heyvandarlıq işi, Mühasibat uçotu, Elektronika və kommunikasiya sistemlərinin istismarı, Kiber təhlükəsizlik, Sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı, Kompüter sistemlərində proqramlaşdırma ixtisasları üzrə Yüksək texniki təhsili verilir. Əsas məqsəd işəgötürənlərlə birgə iş yerinin tələblərinə uyğun ixtisas üzrə texniki və idarəetmə səriştələrinə malik kadr hazırlığını həyata keçirmək və əmək bazarının tələblərini ödəməkdir. Bu ixtisaslara yiyələnən mütəxəssislər subbakalavrlara bərabər tutulan bütün imtiyazlara sahib olur və təhsilin sonrakı pilləsinə rahat keçid əldə edirlər.

Qeyd edək ki, 2022-2023-cü tədris ilini uğurla başa vurmuş 61 nəfər tələbəyə tam orta təhsil haqqında sənədlər təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən 2023-cü il "Heydər Əliyev" ili elan olunması ilə əlaqədar olaraq Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Ümummilli lider Heydər Əliyevin həyat yolunun və siyasi irsinin tanıdılması", "Nurdan yaranıb nura qovuşan insan"mövzusunda tədbirlər keçirilmiş, Azərbaycan Gənclər Fondu maliyyə dəstəyi ilə "Qəbələ Regional Gənclərin Resurs Mərkəzi" İctimai Birliyi tərəfindən həyata keçirilən "Ulu Öndərin 100 illiyi"nə həsr edilmiş gənclər arasında Azərbaycan tarixi mövzusunda intellektual oyunlar layihəsi çərçivəsində yarış, "Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında rolu" mövzusunda konfrans, "Poeziya Günü", Açıq dərs, Heydər Əliyev Mərkəzi ziyarət edilmiş, Mərkəz tələbələri tərəfindən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə fləşmob keçirilmiş, ümummilli lider Heydər Əliyevin dəyərli fikirləri Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin müəllimlərinin dilindən səsləndirildiyi videoçarx hazırlanmış, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi Müşviq Qarayev "Sən elə bir zirvəsən" adlı Respublika İfa Müsabiqəsinin yekun konsertində II yerə layiq görülmüşdür.

Tələbələrimizin könüllüləri olaraq, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan Könüllülərinin VI həmrəylik Forumu"nda da iştirak ediblər.

Ötən il ərzində Mərkəzin tələbələri ADAU-da, Göygöl Sınaq Laboratoriyasına, İsmayıllı rayonunda yerləşən AZZA QSC-nin heyvandarlıq kompleksinə, Arsu Aqropark QSC-ə səfər etmiş, UNEC ilə onlayın infoturda, Bakı Konqres Mərkəzində "Gənc Mühasiblər" İB-nin təşkilatçılığı ilə Milli Mühasiblər Forumunun II Panel Görüşündə, "Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu ilə virtual görüş, "Bakı Marafonu-2023"də iştirak etmişdirlər.

Həmçinin, Almaniya Sparkassenstiftung Fondu və Agri Kontakte təşkilatının birgə əməkdaşlığı çərçivəsində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin "Almaniyada Beynəlxalq Kənd Təsərrüfatı Təcrübə Proqramında" iştirak hüququ qazanmış tələbələri aprel ayından Almaniyada təcrübəyə başlamışdır. Qeyd edək ki, təcrübə proqramının əsas məqsədi Almaniya və tərəfdaş ölkələr arasında ikitərəfli əlaqələrin inkişafı, eyni zamanda Azərbaycanda kənd təsərrüfatı sahəsinin inkişafına töhfə verməkdən ibarətdir. Alman Əmanət Bankı Maliyyə Qrupunun nümayəndələri tərəfindən Cənubi Almanyada Təcrübə keçəcək seçilmiş tələbələrə "Fermer biznes oyunu" və "Təsərrüfatın davamlı İdarəedilməsi" adlı təlimlər keçirilmiş və "Almaniya Təcrübə Proqramı" layihəsi çərçivəsində Alman dili kursunu, proqram öncəsi təlimləri müvəffəqiyyətlə bitirən tələbələr seçilmişdir. Mütəmadi olaraq həmin tələbələrlə

(Ardı 8-ci səhifədə).